# Qarabağın bərpası iqtisadiyyatın inkişafı üçün yeni imkanlar yaradır

***Bu gün düşməndən azad olunan torpaqlarda minatəmizləmə əməliyyatları ilə paralel şəkildə infrastruktur layihələri də reallaşdırılır. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq düşməndən təmizlənən ərazilərdə elektroenergetika infrastrukturunun respublikanın enerji şəbəkəsinə inteqrasiyası istiqamətində hazırlanan Qarabağ Enerji Strategiyasına əsasən Ağdam rayonunda 110 kilovoltluq iki yarımstansiyanın tikintisi həyata keçirilir. Hazırda bu yarımstansiyaların elektrik təchizatı şəbəkəsinə qoşulması üçün "Xındırıstan" yarımstansiyasından 110 kilovoltluq 40 kilometr uzunluğunda xətt çəkilir. Cari ilin sonuna kimi hər iki yarımstansiyanın fəaliyyətə başlayacağı gözlənilir.***



Qeyd edək ki, Qarabağda kiçik su elektrik stansiyalarının bərpası istiqamətində də işlər davam edir. Dövlətimizin başçısının iştirakı ilə istismara verilən ilk infrastruktur layihəsi kimi Laçın rayonu ərazisində "Güləbird" Su Elektrik Stansiyası bunun bariz ifadəsidir. Eyni zamanda, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcərdə yeni yarımstansiyaların tikintisi davam edir. Kəlbəcərə Daşkəsəndən yeni 110 kilovoltluq xətt çəkilir.

Bütün bunlarla bərabər, Füzuli Beynəlxalq Hava Limanında son tamamlama prosesi aparılır. "Zəfər yolu"nda da işlər sürətlə görülür. Yolun yaxın vaxtlarda istifadəyə verilməsi gözlənilir.

Onu da qeyd edim ki, düşməndən təmizlənən ərazilərin bərpası dünyanın ən qabaqcıl texnologiyalarının tədbiqi ilə reallaşdırılır. Qarabağda "ağıllı kənd" layihəsi icra olunur. Bu konsepsiyanın həyata keçirilməsi Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə təsdiqlənən "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb. Cari il aprelin 19-da isə dövlətimizin başçısı "ağıllı şəhər" (Smart City) və "ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında müvafiq sərəncam imzalayıb.

Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun Birinci Ağalı və İkinci Ağalı kəndlərinin ərazisində "ağıllı kənd" layihəsinin təməli qoyulub və hazırda tikinti işləri davam etdirilir.

Qarabağda reallaşan infrastruktur layihələri beynəlxalq yükdaşımalar baxımından da mühüm önəm daşıyır. Bu gün Füzulidə Horadiz şəhəri ilə Zəngilan rayonunu birləşdirən dəmiryol xəttinin inşası davam etdirilir. Bu dəmiryol xətti Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Başqa sözlə, Qarabağda formalaşan nəqliyyat infrastrukturunun, o cümlədən Azərbaycanda reallaşan nəqliyyat sisteminin işğaldan azad olunan ərazilər vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiyası gerçəkləşəcək.

Zəngəzur dəhlizi Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə qovuşacaq. Nəticədə Füzuli rayonunda formalaşan infrastruktur beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya olunmaqla daha çox yük və sərnişindaşımalar imkanı əldə edəcək.

Yeri gəlmişkən, Qarabağın bərpa prosesi Maliyyə Nazirliyinin 2022-2025-ci illər üçün makrofiskal çərçivə və 2022-ci il üçün icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında da öz ifadəsini tapıb. Sənəddə 2022-2025-ci illər üçün xərclərin əsas prioritetlərindən biri kimi müharibənin nəticələrinin aradan qaldırılması, düşməndən təmizlənən ərazilərin bərpası, yenidənqurulması və ölkə iqtisadiyyatına reinteqrasiyası xüsusi qeyd edilib.

Nazirliyin açıqlamasında bildirilir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü, 30 il davam edən işğalı nəticəsində yüzlərlə yaşayış məntəqəmiz, dövlət əmlakı və xüsusi əmlak, çoxsaylı infrastruktur obyektləri dağıdılaraq, tam yararsız hala salınıb. Döyüş əməliyyatları başa çatdıqdan dərhal sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsinə, minatəmizləmə tədbirlərinin təşkil olunmasına, habelə su, elektrik enerjisi, qaz təchizatı, rabitənin bərpası, həmçinin yol infrastrukturunun qurulması ilə əlaqədar işlərin icrasına başlanılıb.

Maliyyə Nazirliyinin adı çəkilən açıqlamasında, həmçinin xatırladılır ki, cari ildən başlayaraq, növbəti illər ərzində bu tədbirlərin daha geniş miqyasda həyata keçirilməsi, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi, sözügedən ərazilərdə iqtisadi fəaliyyətin bərpa olunması istiqamətində tədbirlərin maliyyələşdirilməsinə ehtiyac var. Bununla yanaşı, döyüş bölgəsindən kənarda yerləşən və düşmən silahlı qüvvələrinin davamlı atəşi altında dağıntılara məruz qalan yaşayış məntəqələrində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş zərərin dövlət vəsaiti hesabına qarşılanması nəzərdə tutulub.

Hərbi qulluqçuların və şəhid ailələrinin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində dəstəyin göstərilməsi, onların zəruri ehtiyaclarının təmin edilməsi, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsi dövlətin diqqət mərkəzində saxlanılacaq. Belə ki, ortamüddətli dövrdə dövlət büdcəsi investisiyalar üçün kifayət qədər imkan yaradacaq. Bu əsasda, dövlət investisiya proqramı xətti ilə, xüsusilə, azad edilmiş torpaqlarda görüləcək işlərə dəstək vermək üçün müvafiq vəsait nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərdə görüləcək işlərin səmərəliyinin artırılması, o cümlədən mərkəzləşdirilmiş qaydada həlli məqsədilə nəzərdə tutulan bütün tədbirlər Strateji Fəaliyyət Planı üzrə vahid konsepsiya əsasında həyata keçiriləcək.

Azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaq. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərdə, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq.

***İqbal MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***